# Bu şəhərdə ən böyük çılğınlıq yaşamaq idi



Məhəmmədli Məhəmməd

*(Esse)*

Həmişə olduğu kimi adi bir gün. Yuxudan durursan. Ətrafa baxırsan. Hər şey həmişəkim kimi. Yenə telefonu götür və "facebook"a gir. İlk iş budur. Bilmək olmaz bəlkə də həyatını dəyişdirəcək bildiriş gəlmişdir. Heyf bu gündə eyni bildirişlər və eyni statuslar... Yemək ye və evdə bir az vaxt öldür. Bəlkə bir az kitab oxudun. O da bəlkə... Sonra şəhərə çıx. Eyni dolanbac küçələr və eyni dalanlar. Eyni düşüncələr və eyni meteostansiya. Beyində yenə eyni fikirlər: "Sabah hərşey fərqli olacaq..." Saatlar eyni axır. Günəş eyni yerdən doğur və batır. İnsanlar isə tələsirlər. Xoşbəxt olmağa tələsirlər. Pul qazanmağa və dərdlərindən qurtulmağa tələsirlər. Yenə eyni yerləri gəz və eyni yerlərə bax. Hər gün gördüyün dəniz kənarına get. Get ki, bəlkə bu gün fərqli nə isə düşündün... Hansısa, çarəsizlikdən dost dediyin biri ilə görüş, bir bakal pivə iç və başlayın birgə hər şeydən şikayətlənməyə, başlayın birgə nəsə etmək istədiyinizi deməyə, sanki dünyanı xilas edəcək güc sizin içinizdədir... Rahat ol, onsuzda bir neçə ay sonra o dostuna bəlkə də nifrət edəcəksən. Nəysə, boş-boş gəzməyə davam et, "dostun" da evinə getdi ta... "Bu şəhərin soyuq divarlarında axtardığımız isti qəlbləri tapa bilmədən keçirdiyimiz saatlara heyfdi..." Saatlar tükəndi. Gün batır. Artıq eyni gəldiyin yol ilə heç bir dəyişiklik olmadan evə qayıtmaq vaxtıdır. Yenə yemək ye və vaxtını kinoya baxaraq öldür. Başqalarının əsl yaşanmalı həyatlarını izlə və həsəd apar. Bəlkə bir gün məndə... Həmişəki kimi televizorda yenə kimlərinsə zəngin həyatlarını əks etdirən film gedir. Azca ona bax, xəyal et, hə, hə düz eşitdin xəyal et ki, bir gün sənin də şəhərin mərkəzində elə filmlərdəki kimi 2 mərtəbəli geniş həyəti olan villan, son model BMW, eynən filmlərdəki kimi minlərlə manat qazandığın ofis işin və gözəl həyat yoldaşın var... "Biz bir gün arzularımızdakı o istiliyi ürəkdən hiss edəcəyik, bəlkə də artıq gecdir, ancaq yenə də bir gün o qadın nəvazişi kimi xoş ümidlərimizi bütün varlığımızda hiss edəcəyik, əsas olan da budur..." Artıq gecdi. Yatmaq vaxtıdır. Pəncərədə ayın sehrli və tutqun şəfəqi bütün möhtəşəmliyi və sirri ilə üzərinə axır. Bəlkə başqa aləmlərdə və başqa həyatlarda ümidlərinə qovuşacaqsan, amma indi yox... Başqa min həyat və on min ömürdə... Və yuxu gəlir...

- Ya sabah son günlərinizi yaşadığınızı bilsəydiniz? Yenəmi belə yaşamağa razı olardınız?..